# MİLLİ QƏHRƏMANLARIN TƏBLİĞİNDƏ MEDİANIN ROLU



Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə "Zərdabi Mətbuat Mərkəzi" İctimai Birliyi Lənkəran şəhərində "Milli Qəhrəmanların təbliği və media mütəşəkkilliyi: mövcud durum və perspektiv vəzifələr" mövzusunda "dəyirmi masa" keçirmişdir. Tədbirə Lənkəranda və ətraf rayonlarda fəaliyyət göstərən media qurumlarının təmsilçiləri, rayonun idarə, müəssisə və təşkilatlarının nümayəndələri, Qarabağ müharibəsinin veteranları, ziyalılar dəvət olunmuşdular.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının humanitar və ictimai-siyasi məsələlər şöbəsinin baş məsləhətçisi Asif İmanlı tədbiri giriş sözü ilə açaraq Lənkəranın zəngin tarixə və şanlı qəhrəmanlıq ənənələrinə malik olduğunu, bu proseslərin işıqlandırılmasında kütləvi informasiya vasitələrinin fəal mövqe tutduğunu qeyd etmişdir. Bildirmişdir ki, rayonda Milli Qəhrəman və şəhid ailələri, müharibə əlilləri dövlət qayğısı ilə əhatə olunmuşlar. Onların döyüş yolunun, göstərdikləri igidliklərin təbliğində media dəyərlərinə xüsusi önəm verilir.

"Dəyirmi masa"da Azərbaycanın hər bir bölgəsinin özündə qəhrəmanlıq salnaməsini yaşatdığını, layihə çərçivəsində sayca ikinci tədbirin Lənkəranda keçirildiyini diqqətə çatdıran Mətbuat Şurasının icra katibi, "Zərdabi Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, respublikanın əməkdar jurnalisti Rəhim Hüseynzadə qeyd etmişdir ki, Lənkəran iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun, Azərbaycanın Milli Qəhrəmanları — Sultanağa Bayramovun, Etibar Əliyevin, Paşa Təhməzovun, Rövşən Abdullayevin və Əsgər Əliyevin doğma yurdudur. Qəhrəmanların əziz, parlaq xatirəsini yaşatmaq hər birimizin borcudur. Layihənin məqsədi də Milli Qəhrəmanların təbliği sahəsində medianın fəaliyyətinə dəstək olmaqdan, onların rəşadətli həyat yolunu cəmiyyətə çatdırmaqdan, gənclər arasında vətənpərvərlik tərbiyəsini gücləndirməkdən, bu mövzuda mətbuatda müzakirələr aparmaqdan ibarətdir.

Tədbirdə layihənin eksperti, Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə mənəvi dəyərlərin qorunmasının vacibliyindən danışmış, əlavə etmişdir ki, sağlam cəmiyyətdə layiqli vətəndaşlar yetişir. Vətənpərvərlik hisslərinin təbliğinə hər zaman ehtiyac vardır. Bu sahədə media öz missiyasını şərəflə yerinə yetirir.

"Ərgünəş" nəşriyyatının direktoru, yazıçı-publisist, "Heydər Əliyev və Azərbaycanın Milli Qəhrəmanları" kitabının müəllifi Oqtay Əliyev qəhrəmanların həyat yolunun təbliğinin gənc nəslin mənəvi tərbiyəsində mühüm əhəmiyyət daşıdığını bildirmişdir. Ulu öndərin Milli qəhrəmanların döyüş yolunu yüksək dəyərləndirdiyini, onların ailə üzvlərinə daim qayğı göstərdiyini, həmin qayğının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, Azərbaycan dövlətinin qəhrəman övladlarımızın media müstəvisində təbliğinə yönələn layihəyə dəstək verdiyini diqqətə çatdırmışdır.

II qrup Qarabağ müharibəsi əlili Ruziyyə Əmirova medianın Qarabağ döyüşlərinin iştirakçısı olan qadınların təbliğinə az yer ayırdığını bildirmişdir. "Zərdabi Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri R.Hüseynzadə media nümayəndələrinə həmin mövzunu daha fəal və peşəkarlıqla işıqlandırmağı tövsiyə etmişdir.

"Dəyirmi masa"da "Respublika" qəzetinin bölgə müxbiri Əlisəfa Həsənov, "Olaylar" informasiya agentliyinin cənub bürosunun rəhbəri Hafiz Mirzə, Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin cənub bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Əlisəfa Ağayev, "Lənkəran" qəzetinin baş redaktoru İltifat Əhmədov, "Astara" qəzetinin baş redaktoru Azər Abdullayev, Lənkəran şəhər 10 nömrəli tam orta məktəbin direktoru Qadir Axundov və başqaları çıxışlarında Milli qəhrəmanların mediada işıqlandırılması və onların şərəfli ömür yolunun tədris müəssisələrində təbliği sahəsində görülmüş işlərdən, həyata keçirilən layihənin əhəmiyyətindən danışmış, bu sahədə medianın roluna dair təklif və rəylərini bildirmişlər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**